**Tədris Mərkəzində növbəti treninq**

Tədbir «Korrupsiyaya qarşı mübarizə, etik davranış, maraqların toqquşması və məlumat azadlığı məsələləri» mövzusuna həsr olunub

Vergilər nazirinin əmri ilə təsdiq edilmiş «Vergi qanunvericiliyi və inzibatçılığının təkmilləşdirilməsi üzrə 2009-2012-ci illər üçün Strateji Plan»da korrupsiyaya qarşı mübarizə məsələləri mövzusunda treninqlərin keçirilməsi də nəzərdə tutulmuşdur. Bu günlərdə nazirliyin Tədris Mərkəzində həmin silsilədən növbəti treninq keçirilmişdir. Treninqə Vergilər Nazirliyi aparatının, nazirlik yanında Xüsusi Rejimli Vergi Xidməti Departamentinin, Vergi Auditi Departamentinin, Vergi Cinayətlərinin İbtidai Araşdırılması Departamentinin, Bakı Şəhər Vergilər Departamentinin və ərazi vergilər idarələrinin vəzifəli şəxsləri iştirak etmişlər.

Tədbir zamanı Vergilər Nazirliyinin Daxili təhlükəsizlik Baş İdarəsinin şöbə rəisi Azər Şükürov «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanunu və bu sahədə vergi orqanları qarşısında duran vəzifələr barədə çıxış etmişdir. O, diqqəti «Korrupsiyaya qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununa, qəbul edilmiş dövlət proqramlarına yönəldərək, bu sahədə mübarizə tədbirlərinin həyata keçirilməsində Prezident İlham Əliyevin imzaladığı qanunvericilik aktlarının əhəmiyyəti barədə ətraflı məlumat vermişdir.

Daxili təhlükəsizlik Baş İdarəsinin şöbə rəisi Şahin Səfərovun çıxışı vergi işçisinin etik davranış məsələlərinə həsr olunmuşdur. O, vergi orqanı əməkdaşının üzərinə düşən vəzifələrin icrası, iş vaxtına əməletmə, xidməti şərəfin və peşə nüfuzunun qorunması ilə bağlı məsələlər, kompüterdən istifadə və məlumat təhlükəsizliyinin təmin edilməsi qaydaları, digər sahələrdə çalışma, ictimaiyyətlə qarşılıqlı əlaqə, məhkəmələrdə və sorğular zamanı ifadə vermə qaydaları və halları, xidməti vəsiqədən və vizit kartından istifadə, vergi orqanı əməkdaşlarının qeyri-etik hərəkətləri barədə məlumatın verilməsi, kodeksin tələblərinə əməl etməklə bağlı işçinin üzərinə düşən öhdəliklər, kodeksin tələblərinin pozulmasına görə məsuliyyət tədbirləri haqqında danışmışdır.

Treninqdə ziddiyyət yaradan məsələlərə aydınlıq gətirmək üçün etik davranış kodeksinin xüsusi müddəaları, etik davranış proqramı müzakirə edilmiş, «Məlumat azadlığı haqqında» Azərbaycan Respublikası Qanununun müddəaları, Vergi Məcəlləsində maraqların toqquşması və məlumat azadlığı məsələləri ilə bağlı ayrı-ayrı hallar şərh olunmuşdur.

Sonda Vergilər Nazirliyi Aparatının rəhbərinin birinci müavini Fariz Səmədov treninqi yekunlaşdıraraq keçirilən tədbirin əhəmiyyətini bir daha vurğulamış, şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə sahəsində vergi xidməti əməkdaşlarına müvəffəqiyyətlər arzulamışdır.

Rəşad SADIQOV